**Səlim Y. Müslümov**

# QURDUN DA BALASINI *QUZU* QAÇIRARMIŞ

***(roman-esse)***

**Bakı – 2025**

*Qəlbimə gəlişi ilə həyatımı günəş kimi*
*işıqlandırmış,*
*bu dünyadan gedişi ilə zülmətə qərq*
*etmiş xanımıma ithaf edirəm.*

I hissə

# SƏİD

*və*

# NƏZRİN



☘

Bakının mərkəzi meydanı "qaynayırdı". Yüzlərlə tələbə, əllərində səsgücləndirici tutmuş təlimatçıların əmrlərilə cərgələrə düzülür, yerlərini dəyişir, müxtəlif hərəkətlər göstərir, plakatları qaldırıb-endirir və şüarlar səsləndirirdilər. Böyük Oktyabr Sosialist İnqilabının[1] növbəti ildönümünün təntənəli şəkildə qeyd olunmasına hazırlıqlar tam sürətlə davam edirdi. Demək olar ki, şəhərin bütün ali məktəblərinin tələbələri bu tədbirə cəlb edilmişdilər. Hətta birinci kurslarda belə dərslərin çoxu dayandırılmış, gənclər marşirovkaya[2] göndərilmişdilər. İnstitutların[3] və onların fakültələrinin komsomol[4] rəhbərləri bu işlərə nəzarət və rəhbərlik edirdilər. Düzünü desəm, fakültənin komsomol rəhbəri olsam da, marşirovkalardan zəhləm gedirdi: bütün günü ayaq üstə ora qaç, bura qaç, onun yerini dəyiş, bunun "aradan çıxmasının"[5] qarşısını al, hər kəsi yoxla, plakatları payla, sonda da geri yığ... Hər gün də eyni şeylər təkrar olunurdu. Bir az yorulmuş, bir az da fikirli halda meydanın mərkəzinə doğru gedirdim ki, dostum İlqarın məni səslədiyini eşitdim. Həmişə olduğu kimi, o, yenə də öz cərgəsindən çıxmış və hansısa institutun qızlardan ibarət dəstəsinin yanında dayanmışdı.

[1] 7 noyabr 1917-ci ildə çar Rusiyasında baş vermiş inqilab

[2] Tələbələrin parad və nümayişlərə hazırlığı

[3] İndiki universitet

[4] Kommunist Gənclər Təşkilatı

[5] Tələbələrin marşirovkadan yayınması

– Səid, sən canın, bir dəqiqəlik bəri gəl, sözüm var sənə.

– İlqar, yenə özbaşınalıq edirsən, bəsdir də. Qayıt keç öz cərgənə.

– Bircə saniyəliyə mənə qulaq as da.

– Nədi e, nə deyəcəksən yenə?

– Bu qızlar hamısı rusca danışır. Nə deyirəmsə, rusca cavab verirlər. Mənə kömək elə, yerlim var, bunların institutunda oxuyur, onu tapmaq istəyirəm.

İlqarın yenə şirin yalan danışdığını düşündüm. Artıq üçüncü il idi ki, bir qrupda oxuyurduq və yaxın dost idik. Şən, gülərüz, zarafatcıl, xeyli də komik, yaraşıqlı və ürəyitəmiz oğlan idi. Qrupumuzda hamı onu çox istəyirdi. Bütün tələbə məclislərimizin "canı" idi. Hələ birinci kursa təzə başlayanda İlqar elan eləmişdi ki, baxmayaraq ki, rus dilində cəmi-cümlətanı on-on beş söz bilir, amma institutu qurtarana qədər bu dili mütləq öyrənəcək. Haradan baxardın, onu rus sektorunun[1] qızlarının yanında görərdin. Bu qızlar da İlqarı şirinliyi və yaraşıqlılığına görə yaxın buraxsalar da, öz aralarında onun rus dilində sözləri əzə-əzə danışmasını yaxşı mənada ələ salıb gülürdülər. Hətta İlqarın bəzi deyimlərini kəlama da döndərmişdilər: "Gülya (rus sektorunda təhsil alan Gülnarə adlı qızı hamı qısaca belə çağırırdı), üzümün bu tərəfinə tüpürəcəsən, o biri tərəfini çevirəcəm, amma dörd ilə bu rus dilini öyrənəcəm e, nə deyirsiz-deyin!"

– Sənin yerlin hansı institutda oxuyur ki?

– Rus dili institutunda. Bunlar da özlərini elə aparırlar ki, guya heç Azərbaycan dilini bilmirlər, ancaq rusca

[1] Rus dilində olan qruplar

danışırlar. Sındıra-sındıra danışardım, amma sonra yerlimi araya qoyacaqlarından qorxuram.

– Yaxşı-yaxşı, gopa basma. Sənin nəsə bir fikrin var, yoxsa yerli-zad bəhanədir. Yenə, görəsən, kimə gözün düşüb?

Qızların cərgəsinə yaxınlaşanda gözlərim Nəzrinə sataşdı, ürəyim sürətlə döyünməyə başladı və İlqara tərəf çevrildim:

– İlqar, sənin bəxtin var da, deyəsən, axı mənim öz qohumum da buradadır. İndi ondan soruşaram. Sənin yerlinin adı nədir?

İlqar yenə zarafatından qalmadı:

- Qızın adı Şəhla, rayonun adı Saatlı, kəndin adı Xələfli. Necədü?!

Heç ağlıma da gəlməzdi ki, İlqar belə bir məqamda doğru danışarmış. Onun sözlərinin yalan ola biləcəyini düşünərək azərbaycanca başladım:

– Salam qızlar! İcazə verin, mən qohumumla ayrıca salamlaşım. Nəzrin, salam, necəsən, qardaşların necədir?

Nəzrinin qızların yanında bərk utandığını hiss elədim və cavab gözləmədən davam etdim:

– Bizim bu İlqar yerlisini, daha doğrusu, Saatlının Xələfli kəndindən olan Şəhlanı axtarır. Bəlkə, biləniniz var?

Cərgənin önündə dayanmış hündürboylu qız heç Nəzrinin nə deyəcəyini gözləmədən sözləri atəş kimi yağdırmağa başladı:

– Əvvəla, salam, sonra da Şəhla 13 "c" qrupundadır, onların da cərgəsi ortadadır. Dostunuz keçib orada axtara bilər.

Mən də eyni sürətlə davam etdim:

– İlqar, görürsən, bu qızlar azərbaycanca necə təmiz danışırlar?! Görünür, onlar sənin "rusdilli" olduğunu bilib, sən yaxınlaşanda başlayıblar öz aralarında rus dilində danışmağa ki, onları tərtəmiz başa düşəsən.

İlqar mənim zarafatıma elə zarafatla da cavab verdi:

– Mən həm də ingilisdilliyəm axı, bu dəqiqə gedib ortadakı cərgələrdən Şəhlanı ingilis dilində soruşacam, – sonra da mənə göz vurub yavaşcadan əlavə elədi. – Qədeş, deyəsən, mənim xahişim sənin də işinə yaradı.

Hündürboylu qız yenə sözündən qalmadı:

– I think your English will be enough for your searches[1].

Bu dəfə məni gülmək tutdu:

– Siz nə danışırsınız, İlqarın ingiliscəsi elə ruscası kimi çox təmizdir.

Hamı gülüşdü. İlqar isə heç bir şey olmamış kimi qızların arasından keçərək orta cərgələrə tərəf getdi...

Nəzrinin atası da, anası da mənim atamın yaxın qohumları idilər. Özümüz də kənddə qonşu idik. Məndən iki yaş balaca idi. Yaşıl-alagözlü bu qızla düz səkkiz il eyni yolla məktəbə gedib-gəlmişdik. Bu yolları gedərkən qəlbimdə gələcək üçün o qədər gözəl planlar qurmuşdum ki...

Həmin planların içində günlərin bir günü özüm də hiss etmədən Nəzrin də yer almağa başlamışdı. Bu uzun hörüklü qızı yanımda addımlayan canlandırmışdım. Ona suallar verirdim, məsləhətlər almaq istəyirdim, amma gözlərimin önündə susqunluğunu görürdüm. Bu utancaqlığın səbəbini də bilirdim: həm ata-ana tərbiyəsinin sərtliyi, həm də hələ də keçmiş qaydalarla yaşayan kəndimizin

[1] Düşünürəm ki, sizin ingiliscəniz axtarışınız üçün kifayət edəcək.